1. Ümumi təhsil pilləsində təfəkkürlə bağlı səriştələrə aiddir:
A) qərar qəbuletmə, müstəqil öyrənmə
B) əməkdaşlıq, rəqəmsal savadlılıq
C) yaradıcılıq (kreativlik), maliyyə savadlılığı
D) tənqidi təfəkkür, ünsiyyət
E) problem həlletmə, ünsiyyət

2. Bir neçə məktəbin şagirdləri arasında istedadlı şagirdlərin müəyyən edilməsi üçün keçirilməsi nəzərdə tutulan bilik yarışması ilə bağlı verilən elanda şagirdlərin və onlara təqdim ediləcək sualların sayı və tipi haqda məlumat verilmişdir. Qaliblərin mükafatlandırılacağının qeyd olunduğu elanda hər sualın iki balla qiymətləndiriləcəyi qeyd olunmuşdur. Bu bilik yarışması ilə bağlı verilən elandan hansı məlumatı əldə etmək mümkün deyildir?
A) qiymətləndirmə meyarları
B) toplana biləcək maksimum bal
C) qiymətləndirmənin nəticəsi ilə bağlı veriləcək qərarlar
D) imtahanın məqsədi
E) qiymətləndirmə vasitələri

3. Şagird sizə (siz onun sinif rəhbərisiniz) yaxınlaşaraq problemini danışır:
"Çərşənbə günü xarici dil dərsində xoşagəlməz vəziyyət yaşandı. Xarici dil müəllimim dərsi danışmaq üçün məni lövhəyə çağırdı. Dərsə zəif hazırlaşdığımı qəbul etsəm də hesab edirəm ki, müəllimin reaksiyası düzgün deyil idi. O, lövhədə səhv etdiyimə görə məni ələ saldı və hər kəsin yanında "Anan kimi sənin də deyəsən dərs oxumaqla heç aran yoxdur" dedi. Xarici dili çox sevirəm, hətta xarici dil müəllimliyini gələcək peşəm kimi seçməyi arzulayıram. Qiymətlərim həmişə əla olub və bu tədris ili ərzində yalnız birinci dəfə idiki dərsə hazırlıqsız gəlmişdim."
*Bu vəziyyətdə səmərəli davranışı seçin:*
A) Ona sakitləşməsini və bu situasiyanı unutmağa çalışmasını, həmçinin xarici dili həmişəki kimi oxumasını tövsiyə etmək.
B) Müəllimin çətin günü olduğunu bildirmək və şagirdə situasiyaya fikir verməməyi tövsiyə etmək.
C) Onu sakitləşdirmək və sonra xarici dil müəllimi ilə görüşüb davranışını müzakirə etmək.
D) Şagirdi dinlədikdən sonra səriştəsiz bir müəllimi cəzalandırmaq və ya hətta işdən çıxarmaq istəyi ilə direktora şikayət etmək.
E) Şagirddən bunu niyə mənə danışdığını soruşmaq, problemi şəxsən müəllimin özü ilə həll etməyə çalışmasını tövsiyə etmək.

4. Siz təhsil məsələləri ilə məşğul olan təşkilatda çalışırsınız. Vətəndaş müraciət edərək məktəb müəllimi tərəfindən onun övladına qərəzli şəkildə aşağı qiymət verildiyini bildirir və həmin müəllim haqqında tədbir görülməsini tələb edir. Məlum olur ki, haqqında şikayət edilən müəllim valideynin yaxın qohumudur. Valideyn və müəllimin şəxsi münasibətləri

başqa bir səbəbdən son zamanlar pozulub. Valideyn hesab edir ki, məhz bununla əlaqədar olaraq müəllim onun övladına aşağı qiymət verib.
*Belə bir vəziyyətdə atıla biləcək ən səmərəli addımı seçin.*
A) Məktəb rəhbərliyi ilə əlaqə saxlayaraq bundan sonra həmin şagirdə obyektiv qiymət yazılmasını tələb edərdim.
B) Müəllimin şagirdə aşağı qiymət verməsinin həqiqətən qərəzli olub-olmadığını aydınlaşdırardım.
C) Məktəb direktoruna münaqişənin şəxsi ədavət zəminində olduğunu, məktəbin fəaliyyətinə aid olmadığını bildirərdim.
D) Şagirdin şəxsi ədavət zəminində incidildiyi barədə məktəb direktoruna məlumat verərdim.
E) Müəllimə böhtan atdığını valideynin nəzərinə çatdırardım.

5. Həmkarlarınızdan biri ona verilən tapşırıqları daim vaxtından tez icra edir. O bu barədə digər əməkdaşların qarşısında lovğalanmağı sevir və bu davranışı getdikcə daha çox təkrarlayır.
Bu vəziyyətdə atıla biləcək ən səmərəli addım nə olar?
A) Çox işləyib tapşırıqları ondan tez bitirərdim
B) Rəhbərliyə bu barədə məlumat verərdim
C) Ona bu davranışlarının bəzi həmkarlara mənfi təsir etdiyini deyərdim
D) Mən də ona qarşı eyni şəkildə davranardım
E) Onu bu davranışına görə danlayardım

6. Siz gənc valideynlərə xidmət göstərən mərkəzdə çalışırsınız. Müşahidə edirsiniz ki, müraciət üçün gəlmiş əliuşaqlı analar növbədə gözlədikləri müddətdə bir qədər əziyyət çəkirlər. Bu tip ziyarətçilərin sayı kifayət qədər çox olduğuna görə onları növbədənkənar qəbul etmək cəhdləri növbə gözləyən və tələsdiklərini iddia edən digər ziyarətçilərin narazılığına səbəb olur.
Bu vəziyyətdə atıla biləcək ən səmərəli addım nə olar?
A) Digər vətəndaşların etirazına baxmayaraq, əliuşaqlı analara növbədənkənar xidmət göstərilməsini təklif edərdim.
B) Analara mərkəzə gələrkən körpələri yaxınlarının yanında qoymağı tövsiyə edərdim.
C) Fikirləşərdim ki, hər xırda məsələ ilə əlaqədar tədbir görməyə ehtiyac yoxdur, buna görə də diqqətimi daha vacib işlərə yönəldərdim.
D) Anaların növbə gözlədiyi müddətdə körpələrin əylənməsi üçün kiçik zona yaradılması barədə rəhbərliyə təklif verərdim.
E) Əliuşaqlı anaların növbədənkənar qəbul edilməsinə etiraz edən valideynləri bu davranışa görə utandırmağa çalışardım.